# Qəbələlilər ölkə Prezidentinə minnətdarlıqlarını bildirirlər

***Ölkəmizdə Koronovirus pandemiyasının geniş yayılmasının qarşısının alınması üçün tədbirlər davam etdirilir. Bu istiqamətdə atdığı qəti addımlara, xalqımıza göstərdiyi diqqət və qayğıya görə respublikamızın bütün güşələrindən olduğu kimi Qəbələ rayonundan da əhalinin müxtəlif təbəqələri tərəfindən dövlət başçısı İlham Əliyevə minnətdarlıq məktubları ünvanlanır. Prezidentin saytına istinadla həmin məktublardan sətirləri oxucularımıza təqdim edirik.***

***Nazim MUSTAFAYEV*–Qəbələ Rayon Ağsaqqallar Şurasının sədri:**

Möhtərəm cənab Prezident.

Sizin uzaqgörən siyasətiniz, vaxtında verdiyiniz qərarlar nəticəsində ölkəmiz bu gün pandemiyadan ən az zərər çəkən ölkələrdən biri kimi tanınır. Çünki Sizin müdrik idarəçiliyiniz sayəsində ölkəmizdə bu bəlaya qarşı vaxtında səmərəli tədbirlər görüldü.

Sizin və Mehriban xanımın xalqa müraciətləriniz hamını səfərbər etdi. Karantin rejiminin tətbiqi, bu rejim müddətində evdə qalan şəxslərin maaşlarının verilməsi, bu mübarizədə zəhməti olan hər kəsin əməyinin qiymətləndirilməsi Sizin humanistliyinizdən irəli gəlir.

Cənab Prezident, Azərbaycan xalqı yaranan çətinliklərin öhdəsindən həmişə gəlib. Ölkəmizdə böyük uğurların əsas səbəbi liderlə xalqın birliyidir. Ən çətin vaxtlarda lider öz xalqının, vətəndaş isə öz liderinin yanındadır. İnanırıq ki, tezliklə bu narahat günlərimiz arxada qalacaq, rəhbərliyinizlə bu bəladan xilas olacaq və ölkəmizdə həyat yenidən əvvəlki axarına düşəcəkdir.

***İmran MUSTAFAYEV*–Qarabağ müharibəsi veteranı:**

Vaxtında görülən bütün tədbirlər, o cümlədən səhiyyə müəssisələrinin qısa müddət ərzində hazırlıq vəziyyətinə gətirilməsi kütləvi yoluxmanın qarşısını aldı. İşsizlərə birdəfəlik müavinətin ödənilməsi, işdən qalan şəxslərin maaşlarının verilməsi Sizin əvəzolunmaz fəaliyyətinizin sayəsində mümkün oldu.

Bu çətin günlərdə həyata keçirdiyiniz tədbirlərlə bir daha sübut etdiniz ki, Siz hər bir vətəndaşın Prezidentisiniz. Biz Sizinlə fəxr edirik. İnanırıq ki, gözəgörünməz düşmənlə mübarizədən qalib çıxacaq, ölkəmizin qüdrətini bütün dünyaya bəyan edəcəyik.

Yorulmaz fəaliyyətinizə görə Qarabağ müharibəsi veteranları adından Sizə və Mehriban xanım Əliyevaya təşəkkür edir, cansağlığı və uğurlar arzulayırıq.

***Seymur MAHMUDOV*–din xadimi:**

Hazırda dünyanı bürüyən COVID-19 pandemiyasının ən az təsir etdiyi ölkələr arasında ön sıralardayıq. Şəxsən öz adımdan və qəbələlilər adından Sizə təşəkkürümü bildirirəm ki, vaxtında qəbul etdiyiniz qərarlar sayəsində ölkəmizdə pandemiya nəzarət altına alınıb və onun təsiri getdikcə zəifləməkdədir.

Başda Siz olmaqla bu işdə zəhməti olan hər kəsə dini icmamızın adından minnətdarlığımızı bildiririk.

Əziz Prezidentimiz, müqəddəs Ramazan ayında bu məsuliyyətli işinizdə Sizə uğurlar arzu edirik. Uca Allah Sizi hifz etsin!

***Gülər ABDULLAYEVA*–müəllim:**

Koronavirus pandemiyasının Azərbaycanda geniş yayılmasının qarşısının alınması istiqamətində gördüyünüz işlərə görə bir müəllim olaraq Sizə minnətdarlığımı bildirirəm.

Siz bizi bu virusun Azərbaycan təhsilinə və gələcək nəsillərə vura biləcəyi ən ağır zərbələrdən qorudunuz. Əminəm ki, Sizin yürütdüyünüz düzgün siyasət sayəsində bütün çətinliklərin öhdəsindən uğurla gələcəyik.

Allah Sizi qorusun. Daim var olun.

***Nuriyə ÇƏLƏBİZADƏ*–müəllim:**

Dünyada cövlan edən koronavirusun ölkəmizdə yayılmasının qarşısını almaq məqsədilə gördüyünüz tədbirlər sözlə ifadə olunmayacaq qədər əvəzsiz və təqdirəlayiqdir. Bütün vətəndaşlara ayrı-ayrılıqda diqqət yetirməyiniz bizləri çox sevindirir. Bir müəllim kimi bizə xüsusi diqqət göstərməyiniz, xüsusilə virtual məktəb layihəsi məni və şagirdlərimi çox sevindirdi. Biz dərslərlə davamlı şəkildə məşğul oluruq.

Cənab Prezident, Sizə dərin minnətdarlığımı bildirirəm. Belə çətin anlarda vətəndaşlara göstərdiyiniz qayğı və yardım hər bir insanın həyatının Sizin üçün nə qədər dəyərli olduğunu təcəssüm etdirən ən bariz nümunədir. Sizə hər zaman dəstəyik.

# Koronavirusa qarşı qabaqlayıcı profilaktik tədbirlər təşkil olunub

Dünyanı bürüyən koronavirus epidemiyasının törədə bi-



ləcəyi fəsadların qarşısının alınması məqsədilə respublikamızın hər bir yerində olduğu kimi Qəbələ rayonunda da dövrü qaydada bu virusa qarşı qabaqlayıcı profilaktik tədbirlər görülür.

Xüsusi karantin rejimində məhdudiyyətlərin bir qisminin yumşaldılmasına baxmayaraq rayon ərazisində fəaliyyət göstərən prospekt və küçələrdə, yollarda, səkilərdə, parklarda, meydançalarda, ticarət obyektlərində, yaşayış evlərinin ümumi istifadə olunan yerlərində, sanitar-təmizlik, tibbi-profilaktik və dezinfeksiyaedici işlər davam etdirilir. Mayın 4-də Heydər Əliyev prospektində, 5 gündəlik tələbat malları mağazasında və həmin mağazaların ətraflarında, 1 müəssisədə sanitar-dezinfeksiya işləri aparılıb.

Həmçinin rayon icra hakimiyyəti tərəfindən ehtiyacı olan aztəminatlı ailələrə və tənha yaşayan yaşlı sakinlərə ərzaq yardımları olunub.

Bu istiqamətdə işlər davam etdirilir.

**"Qəbələ"**

# Pandemiyaya qarşı mübarizə tədbirləri davam etdirilir

Qəbələ şəhərində koronavirus (COVİD-19) infeksiyasının yayılmasının qarşısının alınması məqsədi ilə prostpekt və kü-



çələr xüsusi məhlulla yuyulmuşdur.

Şəhərin Heydər Əliyev prospektində, Həzi Aslanov küçəsində, 3 gündəlik tələbat malları mağazasında və həmin ticarət obyektlərinin ətrafında sanitar-dezinfeksiya işləri aparılmışdır.

Rayon icra hakimiyyəti tərəfindən isə ehtiyacı olan aztəminatlı ailələrə və tənha yaşayan ahıl sakinlərə ərzaq yardımları çatdırılmışdır.

**"Qəbələ"**

# Koronavirusa qarşı mübarizədə kompüterdən istifadə olunacaq

Yaponiyada COVID-19 koronavirusuna qarşı mübarizəni gücləndirmək məqsədilə "Fuqaku" superkompüterindən nəzərdə tutulduğundan bir il tez istifadə olunacaq.

AZƏRTAC xəbər verir ki, bu barədə superkompüterin hazırlanması ilə məşğul olan RIKEN İnstitutu məlumat yayıb. Kobe şəhərində yerləşən İnstitutdan bildirilib ki, adı "Fuci dağı" mənasını verən kompüterdən universitetlər tərəfindən aparılan tədqiqatlarda istifadə olunacaq.

Həmin layihə əsasən COVID-19-a qarşı dərman hazırlanmasını, onun iqtisadiyyata təsirini, müxtəlif simulyasiyalar aparılmasını və digər məsələləri özündə birləşdirən dörd vəzifənin həyata keçirilməsini nəzərdə tutur.

Qeyd edilir ki, RIKEN İnstitutu ilkin olaraq bu superkompüterin 2021-ci ildə tam gücü ilə istifadəyə verilməsini planlaşdırırdı. Belə ki, onun hesablama bloklarının təqribən 25 faizi hələ quraşdırılmayıb.

İnstitut əməkdaşlarının bildirdiyinə görə, "Fuqaku" tam hazır olmasa da, onun hesablama sürəti vaxtilə dünyanın ən sürətli superkompüteri hesab olunan K modelini təqribən səkkiz dəfə üstələyir.

# Profilaktika və maarifləndirmə işləri görülmüşdür

***Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın tələb və tövsiyələrinə uyğun olaraq koronavirus infeksiyasının yayılması hallarının qarşısının alınması istiqamətində Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müvafiq tapşırıqlarına əsasən profilaktik tədbirlərin həyata keçirilməsi davam edir.***

Profilaktika məqsədilə mayın 3-də Qəbələ şəhərinin ərazisindəki 2 küçədə, 2 çoxmərtəbəli binada, həmin binaların girişlərində, 3 marketdə və ətraflarında sanitar-dezinfeksiya işləri aparılmışdır.

Koronavirus infeksiyasının yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə rayonda parklar, küçələr daim təmiz saxlanılır və müntəzəm olaraq dezinfeksiya olunur.

Həmçinin rayon icra hakimiy-



yəti tərəfindən ehtiyacı olan aztəminatlı ailələrə və tənha yaşayan ahıllara ərzaq yardımları edilmiş, yaşı 65-dən yuxarı olan insanların elan olunmuş karantin rejimi ilə əlaqədar evdən çıxması ilə bağlı maarifləndirmə işləri aparılmışdır.

**"Qəbələ"**